

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 145 (24.032)

4 avqust 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Grand-Agro İnvitro" Məhdud Məsuliyyətli Cəmiyyətinin müəssisəsinin fəaliyyəti ilə tanış olublar və "Azbadam" Məhdud Məsuliyyətli Cəmiyyətinin badam emalı zavodunun açılışında iştirak ediblər. Dövlətimizin başçısı bildirib ki, fındıq bağlarının sahəsi iki dəfədən çox artırılıb. Fındıq ixracına görə Azərbaycanın indi dünyada üçüncü yerdə olsa da, badam istehsalı, əfsuslar olsun ki, ölkəmizdə çox aşağı idi və daxili tələbatı ödəmirdi. Ona görə indi badamçılıqla da ciddi məşğul olmaq lazımdır. Burada yerli sortlara daha çox üstünlük verilməlidir.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın açılışında iştirak etdikləri badam emalı zavodu isə "Azbadam" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus istehsal müəssisəsidir. İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azbadam" MMC-nin icraçı direktoru Anar Ağayev dövlətimizin başçısına və birinci xanıma zavod barədə məlumat veriblər. Dövlətimizin başçısı deyib ki, Abşeron torpaqları zeytun, badam yetişdirmək üçün ən münbit torpaqlardır. Burada hələ boş torpaqlar var, onlardan mütləq istifadə etmək lazımdır. Dövlətimizin başçısı İlham Əliyev zavodu işə salıb.



Dövlət proqramı icra olunur

## Muxtar respublikada dayanıqlı inkişaf təmin edilib

*Naxçıvan Muxtar Respublikasında əhalinin sosial rifahının və iqtisadi sahədə səmərəli təşəbbüskarlığın təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Görülən işlər sosial infrastrukturun yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına və əhali gəlirlərinin artırılmasına gətirib çıxarır. Əldə edilən nailiyyətlərin əsasında dayanan mühüm faktorlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurla icra edilməsidir. Proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsi cari ilin birinci yarım ilində də diqqətdə saxlanılmış, həyata keçirilən tədbirlər yeni nailiyyətlərə yol açmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasında əsas inkişaf göstəriciləri üzrə müsbət dinamika qorunub saxlanılmış, sosial-iqtisadi islahatlar və tikinti-quraşdırma işləri davam etdirilmişdir".***

Muxtar respublikada tikinti-quruculuq işlərinin geniş vüsət alması, abadlıq tədbirlərinin həyata keçirilməsi şəhər və rayonların simasını başdan-başa dəyişir. Görülən işlər insanların rahatlığını təmin edir, müasir infrastrukturun formalaşmasına səbəb olur və turizmin inkişafı üçün yeni imkanlar açır. Birinci yarım ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə keçirilən tədbirlərdə Şərur rayonunun Çərçiboğan kəndində yeni tam orta və uşaq musiqi məktəbləri, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri, eləcə də Şərur Rayon Mədəniyyət Sarayı, "Naxçıvan Saray" kompleksi, Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin, Kəngərli Rayon Baytarlıq İdarəsinin, Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin yeni inzibati binaları, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında əsgər yataqxanası, idman və 1-ci Sərhəd Komendantlığının xidməti-yaşayış kompleksləri, Şahbuz şəhərində hərbçi ailələri üçün xidməti yaşayış binası istifadəyə verilmişdir. Bu dövrdə Ali Məclisin Sədri, ümumilikdə, müxtəlif təyinatlı 17 obyektin istifadəyə verilməsi ilə bağlı tədbirlərdə iştirak etmiş, 4 obyektin tikinti və yenidənqurma layihələrinə baxmışdır. Dövlət proqramının icrası istiqamətində 4 inzibati binada yenidənqurma, 7 inzibati binada təmir işləri, 1 yaşayış binasının fasadının üzlənməsi başa çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən irimiqyaslı layihələrin başlıca məqsədi əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifahının yaxşılaşdırılmasıdır. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tədbirlərin icrası ilin birinci yarısında da davam etdirilmiş, Ali Məclis Sədrinin iştirakı ilə 15 mart və 9 iyun tarixlərdə keçirilən tədbirlərdə 15 şəhid ailəsi və qaziyə mənzillər təqdim olunmuşdur. Həmçinin bu dövrdə 16 qaziyə avtomobil verilmiş, 4 qazinin kredit borcu silinmiş, 4 şəhid ailəsi və 6 qazinin mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Birinci yarım ildə 182 sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluğu təmin olunmuş, əlavə olaraq əvvəlki dövrdə aktiv verilən və təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirən 1 ailəyə otdoğrayan, 5 ailəyə arpabuğda qıran aqreqat verilmişdir.





Sosial-iqtisadi inkişaf sahəsində əldə edilən uğurlarda özəl sektorun xüsusi çəkisi vardır. Sahibkarlığın inkişafı muxtar respublikada məhsul bolluğunun yaradılmasına və əhalinin səmərəli məşğulluğunun təmin olunmasına imkan verir. Dövlət proqramında da sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi və onların ixrac fəaliyyətinin genişləndirilməsi ilə bağlı tapşırıqlar nəzərdə tutulmuşdur. Ümumilikdə, birinci yarım ildə muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə 15 milyon 978 min 160 manat məbləğində güzəştli şərtlərlə kreditlər verilmişdir. İxracyönümlü fəaliyyət göstərən 13 müəssisə tərəfindən 14 adda məhsul 9 xarici ölkəyə və Bakı şəhərinə ixrac olunmuşdur. Bu məqsədlə həmin müəssisələrə 95 mənşə sertifikatı, həmçinin ixrac potensialının artırılması məqsədilə 5 hüquqi şəxsə təqdim etdikləri investisiya layihələri çərçivəsində, ümumilikdə, 11 təsdiqedici sənəd verilmişdir. "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ixrac potensiallı məhsullar üzrə 1108 laboratoriya təhlili aparılmış, təsərrüfat subyektlərinə məhsulların texniki normaları və standartları üzrə 50 halda informasiya dəstəyi göstərilmişdir. Sahibkarların xarici ölkələrdə ticarət tərəfdaşlarının tapılmasına dəstək məqsədilə 19 beynəlxalq tədbirdə 47 sahibkarlıq subyektinin 71 nümayəndəsinin iştirakı təmin olunmuşdur. İxracyönümlü məhsul istehsal edən sahibkarlıq subyektlərinin nümayəndələri üçün ISO beynəlxalq standartlarının tətbiqinə və sənayedə brendləşməyə dair 2 maarifləndirici seminar keçirilmişdir.

Yanvar-iyun aylarında muxtar respublikada yerli xammala əsaslanan 6 istehsal sahəsinin yaradılması, 3 istehsal sahəsinin genişləndirilməsi, 2 istehsal sahəsinin bərpası başa çatdırılmış, 13 istehsal sahəsinin yaradılması və 7 istehsal sahəsinin genişləndirilməsi davam etdirilmişdir. Ümumilikdə, bu dövrdə dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 90 layihə üzrə işlər başa çatdırılmış, yeni yaradılan istehsal sahələrində 267 iş yeri açılmışdır.

Naxçıvan Muxtar Respublikasında 2022-ci ilin "Sənaye ili" elan edilməsi bu sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin intensiv xarakter almasına səbəb olmuşdur. Birinci yarım ildə muxtar respublikada 590 milyon 692 min 100 manat dəyərində sənaye məhsulu istehsal olunmuş, Şərur Sənaye Məhəlləsində işlər davam etdirilmişdir. Bu günədək sənaye məhəlləsində üçmərtəbəli inzibati bina, 3 istehsal korpusu, eləcə də transformator, foseptik quyu, mühafizə otağı, yanğın və içməli su anbarı üçün, ümumilikdə, 273 kvadratmetr sahədə yardımçı tikililər inşa olunmuşdur. Hazırda burada 2 mebel və 1 ayaqqabı istehsalı müəssisəsi fəaliyyət göstərir. Bitki yağı, məktəbli ləvazimatları, corab, süd məhsulları, kağız kisə və karton tara istehsalı, meyvə-tərəvəzin konservləşdirilməsi və qurudulması sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Qeyd edilənlərlə yanaşı, Naxçıvanda yeni Duz İstehsalı Müəssisəsinin tikintisi də davam etdirilməkdədir.

Dayanıqlı iqtisadi mühitin formalaşdırılmasına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə təsir edən mühüm faktorlardan biri kənd təsərrüfatıdır. Aqrar sektorun inkişafı həm ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsinə, həm ixrac potensialının artırılmasına, həm də sənaye sahəsində etibarlı xammal bazasının yaradılmasına imkan verir. Birinci yarım ildə Naxçıvanda 152 milyon 692 min 100 manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Bu dövrdə dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 31 heyvandarlıq, 2 quşçuluq təsərrüfatının yaradılması, 13 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 11 heyvandarlıq, 1 quşçuluq təsərrüfatının yaradılması, 11 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, 1 heyvandarlıq kompleksinin və 1 quşçuluq fermasının yenidən qurulması davam etdirilmişdir. Proqramın icrasına uyğun olaraq aqrar sahədə 2540 sığorta müqaviləsi bağlanmışdır. Bu dövrdə 5897 baş iribuynuzluda süni mayalanma işləri aparılmış, ötən dövrdən mayalanan 7938 baş cins bala doğulmuşdur. Culfa Rayon Baytarlıq İdarəsi üçün inzibati binanın tikintisi davam etdirilmişdir.

İlin birinci yarısında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 93 müxtəlif texnika və texnoloji avadanlıq alınaraq ehtiyat yaradılmış, 99 texnika və texnoloji avadanlığın güzəştli şərtlərlə mülkiyyətçilərə verilməsi təmin olunmuşdur.

Aqrar sektorun davamlı inkişafına təsir edən amillərdən biri də ailə təsərrüfatlarıdır. Muxtar respublikada ailə təsərrüfatlarının inkişafına göstərilən dövlət qayğısı yerli istehsalın genişləndirilməsinə, əhalinin məşğulluğunun artırılmasına və ailə biznesinin qurulmasına şərait yaradır. Birinci yarım ildə ailə təsərrüfatlarının fəaliyyətinin stimullaşdırılması məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 50 təsərrüfata, ümumilikdə, 766 min 300 manat həcmində güzəştli şərtlərlə kredit verilmişdir.





Ardı 2-ci səhifədə

Bu dövrdə ailə təsərrüfatları 6174 tara ilə təmin olunmuş, 28 təsərrüfata istehsal etdikləri məhsulların etiketinin hazırlanmasında köməklik göstərilmişdir. "Naxçıvan Məhsulları" publik hüquqi şəxs tərəfindən ailə təsərrüfatlarından 13 adda ərzaq məhsulları alınaraq qapalı dövlət müəssisələrinin təchizatına yönəldilmişdir. Cari ilin birinci yarısında 48 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilmiş, 30 ailə təsərrüfatının icarəsinə verilmiş 7 hektar torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.





Kənd təsərrüfatı məhsulları istehsalının sabit şəkildə artırılmasına meliorasiya-irriqasiya tədbirləri mühüm təsir göstərir. Əkin sahələrinin su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Bu istiqamətdə aprelin 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə keçirilən tədbirdə Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 2200 hektar torpaq sahəsini suvarma suyu ilə təmin edəcək yeni nasos stansiyası və təzyiqli boru xətti istifadəyə verilmişdir. Əlavə olaraq birinci yarım ildə Böyükdüz və Xok kəndlərinin 3200 hektar torpaq sahəsini suvarma suyu ilə təmin edəcək Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisinə başlanılmışdır. Proqramın icrası məqsədilə 2 subartezian quyusu qazılaraq istifadəyə verilmiş, Babək rayonunun Nehrəm qəsəbəsində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 19 kilometr paylayıcı boru xətti çəkilmiş, 187 hovuz və hidrant quraşdırılmışdır. Çeşməbasar və Güznüt kəndləri ərazisində 240 hektar sahədə qapalı suvarma sisteminin tikintisi üçün hamarlama işləri aparılmış, 8 kilometr müxtəlif diametrli plastik borular qaynaq edilmişdir. Bu dövrdə 151 kilometr kanal, 102 kilometr ara arx və 4 kilometr kollektor lildən təmizlənmiş, 4 kilometr selə qarşı istiqamətləndirici bənd tikilmişdir. Ümumilikdə, 64 hektar ərazidə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır. Qeyd edilənlərlə yanaşı, ilin birinci yarısında 12 kilometr içməli su xəttində, 2 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır. "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində 29 kilometr içməli su xətti çəkilmiş, 1151 sayğac quraşdırılmış, 183 evin su xəttinə birləşməsi aparılmışdır.

Dövlət proqramında yol təsərrüfatı və nəqliyyatın inkişafı sahəsində nəzərdə tutulan tədbirlərin reallaşdırılması da sosial-iqtisadi inkişafa təkan verən amillərdəndir. Nəqliyyat sosial-iqtisadi təhlükəsizliyin əsas təminatlarından biri hesab olunur. Bu sahədə müasir infrastrukturun və intensiv hərəkətə malik nəqliyyat vasitələrinin mövcudluğu bir tərəfdən istehsal məhsullarının alıcıya vaxtında çatdırılmasına, digər tərəfdən fəaliyyətin səmərəli təşkilinə imkan verir. Birinci yarım ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Dövlət Nəqliyyat Xidmətinə 6 yeni elektrobusun, Naxçıvan Beynəlxalq Hava Limanına teleskopik trapın və maşın-mexanizmlərin təqdim edilməsi ilə bağlı tədbirlərdə iştirak etmişdir. Bu dövrdə Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən, ümumilikdə, 16 kilometr uzunluğunda avtomobil yollarının yenidən qurulması başa çatdırılmışdır. Xanlıqlar - Şərur şəhəri - Yengicə - Şahriyar - Kürçülü-Kərimbəyli - Dəmirçi kənd avtomobil yolunun tikintisi davam etdirilmişdir. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yararsız vəziyyətdə olan 1198 ağac şpal yeni şpallarla əvəz edilmiş, Culfa Lokomotiv Deposunda lokomotivlər 19 dəfə texniki baxışdan keçirilmiş, Culfa İstismar Vaqon Deposunda 27 vaqon təmir olunmuşdur.

Coğrafi və əlverişli iqlim şəraiti muxtar respublikada bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Fasiləsiz enerji təchizatı sosial-iqtisadi inkişafın digər mühüm istiqamətini təşkil edir. Müasir dövrün tələblərinə cavab verən infrastrukturun yaradılması keyfiyyətli enerji istehsal etməyin ilkin şərtidir. Proqramda nəzərdə tutulan enerji təchizatının yaxşılaşdırılması tədbirləri çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə mayın 5-də Şərur rayonunun Zeyvə kəndində yeni Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Birinci yarım ildə muxtar respublikada 21 kilometr yeni elektrik xətləri çəkilmiş, 126 kilometr elektrik xətləri təmir edilmiş, 8 transformator yarımstansiyası quraşdırılmış, 2 kilometr hava elektrik xətləri yeraltı xətlərlə əvəz olunmuşdur. Ordubad və Tivi Su Elektrik stansiyalarının tikintisi davam etdirilmişdir. Ali Məclisin Sədri demişdir: ***"Muxtar respublikada elektrik enerjisinə olan tələbatın 60 faizə yaxını bərpa olunan enerji ilə təmin edilir. Bu sahədə işlər davam etdirilir. Çünki təbii resurslardan istifadə edərək muxtar respublikanın elektrik enerjisinə olan tələbatını bərpa olunan enerji mənbələri hesabına ödəmək mümkündür".***

İnformasiya texnologiyalarının tətbiqi müasir idarəetmənin əsas tələblərindəndir. Muxtar respublikada dayanıqlı telekommunikasiya infrastrukturunun formalaşdırılması və internetdən istifadənin genişləndirilməsi ilə bağlı ardıcıl tədbirlər görülür. Proqramda nəzərdə tutulan rabitə xidmətlərinin yaxşılaşdırılması tədbirləri çərçivəsində yanvar-iyun aylarında Naxçıvanda 23 kilometr, o cümlədən "Evədək optika" layihəsi çərçivəsində 16 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmiş, 3 min abonent internetlə təmin olunmuş, 935 yeni telefon nömrəsi abonentlərin istifadəsinə verilmişdir. Bu dövrdə 9 dövlət qurumunun rəsmi internet saytı yenilənmişdir. İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan kurslara 315 dinləyicinin cəlb edilməsi bu sahədə kadr hazırlığının da diqqətdə saxlanıldığının mühüm göstəricisidir.

*Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası məqsədilə yanvar-iyun aylarında 3 qeyri-yaşayış sahəsinin və 54 nəqliyyat vasitəsinin özəlləşdirilməsi təmin edilmişdir. Həmçinin bu dövrdə 53 qeyri-yaşayış sahəsi üzrə yeni icarə müqavilələri bağlanmış, 241 qeyri-yaşayış və 3 torpaq sahəsi üzrə bağlanmış icarə müqavilələrinin müddətləri uzadılmışdır. Ümumilikdə, dövlət əmlakının özəlləşdirilməsindən 482 min manat vəsait daxil olmuş, torpaq və qeyri-yaşayış sahələri üzrə bağlanmış icarə müqavilələrindən 86 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.*

**"Şərq qapısı"**

## Yenidənqurma işləri tamamlanmaq üzrədir





Muxtar respublikamızda aparılan quruculuq tədbirlərindən Şərur rayonunun ucqar kəndi olan Axuraya da pay düşüb. Bu yaşayış məntəqəsində kompleks quruculuq tədbirlərinə başlanmasını sakinlər kənd adamlarına göstərilən dövlət qayğısı kimi dəyərləndirirlər.

Müasir layihə əsasında tikilən kənd mərkəzi iki mərtəbədən ibarət olacaq. Binanın hər iki mərtəbəsində istilik xətləri və pəncərələrin blokları quraşdırılıb, dam örtüyü tam hazır vəziyyətdədir. Hazırda burada son tamamlanma işləri gedir. Binanın birinci mərtəbəsində kitabxana, rabitə evi, polis və baytarlıq məntəqələri fəaliyyət göstərəcək. İkinci mərtəbədə isə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyasının ərazi ilk təşkilatı, arxiv və klub yerləşir.

Digər quruculuq obyekti kənd mərkəzinin yaxınlığında olan ikimərtəbəli həkim ambulatoriyasıdır. Son tamamlanma işləri görülən binanın birinci mərtəbəsində qeydiyyat otağı, aptek, palata, qazanxana və doğuş otağı, ikinci mərtəbədə isə baş həkim, stomatoloq, manipulyasiya, peyvənd və mama otaqları yerləşir.

Hər iki obyektin inşası "Artay" LTD Tikinti Şirkətinin Naxçıvan filialına həvalə edilib. Vahid layihə əsasında inşa olunan obyektlərdə yerli tikinti materiallarından istifadəyə üstünlük verilir. İnşaatçılara normal iş şəraiti yaradılıb, onlar paltar, ayaqqabı və qoruyucu baş örtüyü ilə təmin olunublar.

**Heydər MƏMMƏDOV**

## Ötən 7 ayda 1088 abonent sabit şəbəkə telefon xətti ilə təmin olunub

*Telekommunikasiya sahəsində gedən sürətli inkişaf əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində işlərin həyata keçirilməsinə əsaslı zəmin yaradıb. Əhalinin müasir rabitə xidmətləri ilə təmin edilməsi cari ilin ötən dövründə də uğurla davam etdirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Şərur rayonunun Çərçiboğan kəndində yeni Rabitə Evi istifadəyə verilib, 672 nömrə tutumlu yeni avtomat telefon stansiyası quraşdırılıb. Əhalinin müasir rabitə xidmətlərinə olan tələbatı nəzərə alınaraq Naxçıvan şəhərinin Qaraçuq kəndində, Şahbuz şəhərində, Babək rayonunun Nehrəm qəsəbəsində və Şıxmahmud kəndində, ümumilikdə, müxtəlif tutumlu 4 yeni HUAWEI NGN tipli avtomat telefon stansiyası quraşdırılıb. Stasionar telefon şəbəkəsinin genişləndirilməsi məqsədilə həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq muxtar respublika üzrə mövcud avtomat telefon stansiyalarının nömrə tutumları artırılıb, ümumilikdə, 1088 yeni sabit şəbəkə telefon nömrəsi abonentlərin istifadəsinə verilib. Rabitə infrastrukturunun yenidən qurulması, xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi məqsədilə şəhər, rayon və kəndlərdə müvafiq işlər görülmüşdür. Ordubad rayonunun Pəzməri kəndində rabitə xətt təsərrüfatının və 96 nömrə tutumlu yeni nəsil avtomat telefon stansiyasının quraşdırılması, eləcə də rayonun Unus və Kələki, Şərur rayonunun Həmzəli, Vərməziyar və Axura kəndlərində rabitə xətt təsərrüfatının yenilənməsi istiqamətində müvafiq işlər isə davam etdirilir.

Qeyd olunanlarla yanaşı, nazirliyin aid mütəxəssislərinin iştirakı ilə yerlərdə monitorinqlər aparılıb, istismar müddəti ərzində rabitə xətt və abunə qurğularında yaranmış nasazlıqlar aradan qaldırılıb, internet verilişində qırılmaların qarşısının alınması istiqamətində zəruri tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Ailə təsərrüfatlarımız*

## Bir çox dərdin dərmanı: şaftalı



*Muxtar respublikamızda meyvəçilik ənənəvi, eyni zamanda əsas kənd təsərrüfatı sahələrindən sayılır. Tərkibi müxtəlif vitaminlərlə zəngin olan meyvələrin insan orqanizminə faydalarını və meyvə ağaclarının ətraf mühitə ekoloji, estetik təsirini nəzərə alsaq, bu sahənin nə qədər əhəmiyyətli olduğunu görərik. Bu səbəbdən də meyvəçilik uzun illərdən bəri diyarımızın ən böyük bölgələrindən biri sayılan Şərur rayonunda da insanların əsas məşğuliyyət növü olub, onların güzəranının yaxşılaşdırılmasında əsas təsərrüfat sahələrindən birinə çevrilib.*

Rayonda yetişdirilən müxtəlif sort meyvələr diyarımızdan kənarda da özünə xeyli alıcı qüvvəsi toplayıb. Bölgədə, əsasən, yerli meyvə sortlarının becərilməsinə üstünlük verilib. Xalq seleksiyası yolu ilə yetişdirilən meyvələr bir sıra dərdlərə dərman sayılıb hər zaman. Həmin meyvələr içərisində şaftalı xüsusi yer tutur. Rayonda bu meyvəni əkib-becərənlər çoxdur. Bu meyvəyə "hülü" də deyirlər. Rayonun bütün kəndlərində, ən çox isə Aşağı Daşarx, Danyeri, Yuxarı Daşarx, Oğuz, Xanlıqlar, Zeyvə, Düdəngə, Siyaqut kəndlərində yetişdirilir. Burada şaftalı bağlarının sahəsi ilbəil genişləndirilir. Meyvəçiliyin inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları isə bu sahədə şərurlulara daha böyük stimul olub. Bunu Naxçıvan-Sədərək magistralının Şərur rayonu ərazisindən keçən yolun kənarlarında gözoxşayan meyvə bağları, tingçilik təsərrüfatları da sübut edir. Onu da vurğulamaq lazımdır ki, rayonda həm də bacarıqlı və təcrübəli bağbanlar yetişib. Bu da rayonda meyvəçiliyin inkişafına öz töhfəsini verir.



Artıq bir neçə müddətdir ki, həmin məhsulun yığımına başlanılıb. Naxçıvan-Sədərək avtomobil yolundan keçənlər yolboyu istədikləri təsərrüfatdan bu ətirli meyvədən alıb dadına baxa bilirlər. Belə təsərrüfatlardan biri də Dərəkənd sakini ***Muraz Məmmədzadə***yə məxsusdur. Onunla min bir zəhmətlə başa gətirdiyi şaftalı bağında həmsöhbət oluruq. Öyrənirəm ki, burada həm yay, həm də payız aylarında yetişən yerli növlər mövcuddur. Artıq üç həftədir ki, məhsul yığımına başlanılıb. İndiyə qədər 2 hektar bağdan 35 tondan artıq şaftalı təarük edilib. Müsahibim deyir ki, şaftalıya yerli bazarda böyük tələbat olduğundan satışında çətinlik yaranmır. Onun sözlərinə görə, şaftalı digər meyvələrlə müqayisədə daha çox qulluq tələb edir. Bağdakı tinglərin növləri arasında "zəfəran" sortu üstünlük təşkil edir. Bu növün qeyri-adi ətri var. Meyvənin iki çeşidi daha məşhurdur. Ağımtılı şirin, sarımtılı isə ətirli olur. Təsərrüfat başçısının sözlərinə görə, bol məhsul əldə etmək üçün ağaclara ilboyu qulluq lazımdır. Ağacların gövdəətrafı vaxtaşırı yumşaldılmalı, lazımi minerallar uyğun miqdarda verilməli, dərmanlama vaxtında aparılmalıdır: – Ötən il olduğu kimi, bu il də məhsulumuz boldur. Bazara çıxarmaqda da heç bir çətinliyimiz yoxdur. Həftəsonu yarmarkalarla yanaşı, məhsulu elə gəlib bağdan alıb aparanlar da çox olur. Şaftalıdan mürəbbə, marmelad, cem, kompot hazırlamaqla bərabər həm də onu qurudurlar. Muraz onu da deyir ki, əkib-becərdiyi bağdan hər il bol məhsul əldə etmək üçün daha məhsuldar və tələbat çox olan şaftalı növlərini artırır.

Yay meyvələrindən ən dadlı və ən şirini olan şaftalının faydalarını saymaqla bitməz. Mütəxəssislərin fikirlərinə istinadən deyə bilərik ki, şaftalı orqanizmin normal fəaliyyəti üçün əhəmiyyətli olan vitaminlər, minerallar və digər zəruri maddələrlə zəngin meyvədir. Tərkibində müxtəlif turşular və vitaminlər, kalsium, kalium, maqnezium, dəmir, manqan, fosfor, sink, selen vardır. Bu meyvə həzm sisteminə çox xeyirlidir. Meyvənin tərkibində olan qida lifləri suyu mənimsəyir, bir sıra xəstəliklərin qarşısını alır, böyrəklərdə daşların həll olmasına kömək edir. Həmçinin şaftalının tərkibindəki maqnezium insanı stress və həyəcandan qoruyur, sinir sisteminin, askorbin turşusu və sinklə zəngin olduğuna görə immun sisteminin sağlam olmasına kömək edir. Meyvənin qabığında və lətində olan fenol birləşmələr isə ürək-damar sistemi xəstəliklərinin inkişaf riskini azaldır, ziyanlı xolesterinin səviyyəsini aşağı salır, tərkibindəki bioloji aktiv komponentlər artıq çəki ilə mübarizə aparmağa kömək edir.

Bu gün muxtar respublikamızda hər sahədə olduğu kimi, meyvəçiliyin inkişaf etdirilməsinə də geniş imkanlar açılıb. Dövlət qayğısından bəhrələnən hər bir torpaq adamı öz təsərrüfatında istədiyi meyvəni yetişdirə bilir. Bu isə yerli bazara başqa yerlərdən gətirilən və genofondu dəyişdirilmiş meyvələrin satışının qarşısını alır. Bundan isə həm bağbanlarımız qazanır, həm də muxtar respublika sakinləri.

**Aytac CƏFƏRLİ**

# Açıq Səma Altında Muzey: qədim diyarımızın zəngin tarixinin fəal təbliğatçısı

***Muzeylər maddi mədəniyyət dəyərləri ilə bütün dövrlərin yaşam tarixinin məsuliyyətini addım-addım, pillə-pillə üzərlərində daşıyan mühüm strateji obyektlərdir. Muzey sərvətlərinin hər birində nəsil-nəsil insanın, bütöv bir xalqın varlığı duyulur, illərdən-illərə, əsrlərdən-əsrlərə yadigar qalan qiymətli sərvətlər insanoğlunun taleyini, əbədiləşmiş varlığını özündə yaşadır. Bu mənada, muzeylər əvəzsiz mənbələr hesab olunur. Belə muzeylərdən biri də Naxçıvan şəhərində Əcəmi seyrəngahında təşkil olunan Açıq Səma Altında Muzeydir.***



Açıq Səma Altında Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 11 iyul tarixli Sərəncamı əsasında yaradılmışdır. Milli-mənəvi və mifoloji-dini baxışlarla əlaqələndirilərək muxtar respublikamızın müxtəlif bölgələrindən əldə olunan daş eksponatlar əsasında yaradılan və hazırda 2,5 hektara yaxın ərazini əhatə edən bu mədəniyyət müəssisəsində 220-dən artıq daş abidə qorunub saxlanılır və ekspozisiya vasitəsilə nümayiş etdirilir. Ekspozisiyada dörd qrup qiymətli və unikal daş abidələr – eksponatlar yerləşdirilmişdir ki, bu eksponatların əsasını inşaat işlərində istifadə olunan sütunlar, sütun başlıqları və altlıqları, dekorativ üzlüklər, məişətdə istifadə olunan dəstərlər, şirəsüzənlər, daş dibəklər və beş ton ağırlığında olan dəyirman daşı, həmçinin dini inanclarımızla bağlı sənduqələr, qoç heykəlləri, məzar daşları, təbiətdən hazır əldə olunan zoomorf fiqurlar və bəndlər, eyni zamanda qayaüstü təsvirlər təşkil edir. Ekspozisiyada yerləşdirilən bütün bu eksponatlar AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları tərəfindən araşdırılmış və müxtəlif tarixi dövrlərə aid olduğu müəyyənləşdirilmişdir. Eksponatların qorunması, təbliğ olunması məqsədilə muzeydə münbit şərait yaradılmış, eksponatların bəziləri ekspozisiyanın divar taxçalarına, bir qismi ekspozisiyaya, bir ədəd eksponat – Gəmiqaya abidəsi isə şüşəli vitrinə yerləşdirilmişdir. Bütövlükdə, muzeyin mühafizəsi ilə əlaqədar ekspozisiyanın ətrafına dəmir məhəccərlər vurulmuşdur.





Daş abidələrimizdə yaşanan tarix qədim soydaşlarımızın dünyanın inkişaf tarixinə hərtərəfli böyük töhfələr verdiyini, bəşər mədəniyyətlərinin, sivilizasiyalarının qurulmasında xalqımızın xüsusi yeri və rolu olduğunu ortaya qoyur. Tariximizin şanlı səhifələrini zənginləşdirən bu abidələr sirli-sehrli tarixləri ilə bərabər, muzeyi ziyarətə gələn hər bir qonağı, tamaşaçını düşünməyə məcbur edir. Daşlarda, qayalarda o insanlar tarix yarada bilmişlər ki, onların isinməyə isti ocağı, ayaq basmağa doğma torpağı olmuşdur. Bu cəhətdən xoşbəxt nəsillərik ki, göz açandan dədə-babalarımızın bizlərə miras qoyduqları ulu torpaqlarımız, şiş zirvəli vüqarlı dağlarımız, daş nemətlərimiz hesabına bu gün də nəsil davamçılarımız yeni tarixlər yaradır, göz bəbəyi kimi onu qoruyur və mühafizəsinin keşiyində dayanırlar.

Muzeyin bütün fəaliyyəti dövründə xidməti vəzifəsi yeni insan tərbiyəsi, hərtərəfli inkişafı və xalqın tarixi mədəniyyətinin sevilməsi işinə yönəldilmiş, elmi maarifçilik və kütləvi tədbirlərin təşkilinə, ekskursiyaların, sərgilərin, açıq dərslərin keçilməsinə, təhsil və elmi-tədqiqat müəssisələri ilə əlaqələrin möhkəmləndirilməsinə diqqət artırılmışdır.

20 illik xidməti müddətində muzeyin geniş tamaşaçı auditoriyası olmuş, Azərbaycanın müxtəlif bölgələrindən, muxtar respublikamızın rayon və şəhərlərindən, həmçinin dünyanın Azərbaycanla siyasi, iqtisadi-mədəni əlaqələri olan bir çox ölkələrindən, eləcə də ölkəmizdə fəaliyyət göstərən xarici dövlətlərin konsulluqları, fövqəladə və səlahiyyətli səfirlikləri və beynəlxalq təşkilatlardan 2 milyona yaxın tamaşaçı fərdi və qrup halında, kollektiv və turist heyətlərinin tərkibində qonaq qismində muzeydə olmuş, qardaş Türkiyə Respublikasından tutmuş, Avrasiya qitəsi ölkələrindən Naxçıvana səfər edənlər gəzinti marşrutlarına Açıq Səma Altında Muzeyi də daxil etmişlər. Tanışlıq müddətində qonaqlar qədim əcdadlarımızın yaratdıqları daş mədəniyyətimiz, tariximiz haqqında zəngin məlumatlar əldə etmişlər.

Muzeylərin nüfuzunun artırılması, cəmiyyətdə yerinin müəyyən olunmasında dövlət səviyyəsində görülmüş tədbirlərə dəstək olaraq muxtar respublikamızda da mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamından sonra qrafiklər üzrə bütün ali və dövlət orqanlarının, müəssisə və təşkilatların kollektivləri digər muzeylərimiz kimi Açıq Səma Altında Muzeyi də ziyarət edirlər. Ekskursiya çərçivəsində həm muzeylə, həm də ulu tariximizlə yaxından tanış olmaları, onlar haqqında geniş məlumat əldə etmələri insanlarımızda Azərbaycançılıq məfkurəsinin, milli təfəkkürümüzün formalaşmasında və möhkəmləndirilməsində mühüm rol oynayır.

Muzey, eyni zamanda fəaliyyəti ilə maarifçilik və elmi təcrübə məktəbi funksiyasını da yerinə yetirməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı mühüm proqram sənədi olmaqla muzey praktikasının geniş yayılmasına, muzeylərin imkanlarından istifadə edilərək yeni kadrların və ixtisaslı mütəxəssislərin yetişdirilməsi işinə xüsusi imkanlar açır. Bu cəhətdən Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun və orta ixtisas təhsil müəssisələrinin müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrinin muzeydə elmi təcrübələrə cəlb olunması, praktik və nəzəri cəhətdən muzey işinin sirləri haqqında məlumatlandırılmaları yeni muzey kadrlarının hazırlanmasında mühüm vəzifələrdən biri hesab olunur. Elmi təcrübə muzey işçilərinin də öz üzərlərində ciddi işləmələrinə, bilik və bacarıqlarının artırılmasına, maarifləndirmə vərdişlərinin metodikasının təkmilləşdirilməsinə xidmət etmişdir.

Naxçıvanın qədim tarixinin, mədəniyyətinin, memarlıq abidələrinin, dövlətçilik əsaslarının öyrənilməsi və tanıdılmasında Açıq Səma Altında Muzeyin xüsusi rolu vardır. Muzeyin ekspozisiyasındakı daş eksponatlar daş dövründən ta ki, XX əsrin ortalarınadək həm cəmiyyətin, həm də Azərbaycanda yaranan dövlətçilik ənənələrinin tarixinə dair qiymətli faktların üzə çıxarılmasında, tarixi həqiqətlərin aydınlaşdırılmasında olduqca əhəmiyyətli mənbələrdən hesab edilir. Gəmiqaya abidəsi o dövr insanlarının inanclarını, astral və mifoloji təsəvvürlərini, kainat haqqında bilgilərini özündə cəm etməklə həm də Nuh tufanının izlərini xatırladır. Həmçinin orta əsr qüdrətli Atabəylər dövlətinin, Ağqoyunlu, Qaraqoyunlu dövlətlərinin, möhtəşəm Səfəvi dövlətinin, Xanlıqlar və müasir dövr tariximizin böyük sirləri daş kitabələrdə, süjetli təsvirlərdə, həndəsi və ornament bəzəklərində qorunub saxlanılmışdır ki, biz nəsillərə bu gün də sanki ecazkar, sirli bir dünya hədiyyə edilmişdir.

Tariximizin, mədəniyyətimizin təbliğində əhəmiyyətli yeri olan Açıq Səma Altında Muzeyin fəaliyyət tarixində yaddaqalan bir sıra məqamlar olmuşdur ki, bunlar da bu mədəniyyət müəssisəsinin fəaliyyətinə ciddi təsir göstərmiş, muzeyin nüfuzunun artırılmasına xidmət etmişdir.

1997-ci ildə ictimai əsaslarla yaradılan Möminə xatın türbə muzeyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərarı ilə Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsi Açıq Səma Altında Muzeyin tabeliyinə verilməklə strukturunda dəyişiklik edilmiş, 2013-cü ilin may ayında muzeyin yeni Əsasnaməsi təsdiq edilmişdir. Əsasnamədə Açıq Səma Altında Muzeyin fəaliyyəti və vəzifələri müəyyənləşdirilmiş, qədim qoç heykəllərin, eləcə də daşdan yonulmuş müəyyən fiqurların toplanılmasını, komplektləşdirilməsini, mühafizəsini, öyrənilməsini, kütləvi nümayişi və təbliğini həyata keçirən mədəniyyət, elmi-tədqiqat müəssisəsi kimi təsbit olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli Qərarı, nazirliyin isə 2013-cü il 19 iyul tarixli əmri ilə Nuh Peyğəmbərin qəbirüstü abidəsi Açıq Səma Altında Muzeyin balansından çıxarılmış və həmin dövrdə yaradılan “Naxçıvanqala” Tarix-Memarlıq Muzeyinin tabeliyinə verilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasındakı muzeylərin fəaliyyətinin tənzimlənməsi haqqında” 2015-ci il 2 fevral tarixli Sərəncamından sonra isə Açıq Səma Altında Muzey, “Xan Sarayı” Dövlət-Tarix Memarlıq Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin tərkibinə verilmiş və bu gün də kompleksin tabeliyində fəaliyyətini uğurla davam etdirir.

Bu illər ərzində Naxçıvan şəhərində keçirilən yerli və beynəlxalq əhəmiyyətli bir çox tədbirlərin, milli bayramlarımızın, o cümlədən “Startap” idman oyunlarının, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Naxçıvan-bəşəriyyətin beşiyi” Beynəlxalq Rəsm Festivalının, Musiqi Festivalının muzeyin ərazisində keçirilməsi tariximizin layiqli təbliğatçısı olan bu mədəniyyət müəssisəsi və daş abidələri ilə tanışlıq baxımından önəmli hesab olunur.

Muzeydə “Milli dəyərlər ili”, “Heydər Əliyev ili”, “Muxtariyyət ili” və digər mühüm tarixi illər və tarixi günlər ilə əlaqədar, o cümlədən Beynəlxalq Tarixi Abidələr və Yerlər, Beynəlxalq Muzeylər Günü, Milli Qurtuluş Günü və təqvimdə qeyd olunan digər mühüm günlərlə bağlı elmi-təcrübi konfranslar, açıq dərslər keçilmiş, sərgilər təşkil edilmiş, “Daş abidələrimiz”, “Qoç heykəllərimiz”, “Daşlarda yaşanan tariximiz”, “Heydər Əliyev irsi və muzeylərimiz” mövzusunda mühazirələr oxunmuşdur. Muzeyin tanıdılmasında informasiya və mətbuat orqanlarının da xüsusi rolu olmuşdur.

Muzey işi yaradıcı, maarifləndirici, tərbiyəedici bir işdir. Muzeyin əməkdaşları mütəmadi olaraq elmi ədəbiyyatları araşdırır, ensiklopedik nəşrləri öyrənir, əldə olunan yeni faktlar əsasında yerli və ölkə mətbuatında – “Şərq qapısı”, “Nuh Yurdu”, “Azərbaycan” və digər qəzetlərin müxtəlif nömrələrində Açıq Səma Altında Muzeyin fəaliyyəti ilə əlaqədar məqalələr dərc etdirir, daş eksponatlarımızın tarixi ilə bağlı maraqlı məlumatları geniş oxucu kütlələrinə çatdırırlar.

Mətbuatla bərabər həm də digər kütləvi informasiya vasitələrində müxtəlif proqramlara muzeyin əməkdaşları müsahibələr vermiş, dəvət olunduqları verilişlərdə daş abidələrimiz haqqında çıxışlar etmişlər. Muxtar respublikamızla yanaşı, ölkəmizin də əksər tanınmış televiziya kanalları, AZAL-ın “Buta” jurnalının çəkiliş qrupu “Poноram Azərbaycan” şirkəti tərəfindən Portal “Virtual Naxçıvan” layihəsi əsasında Fransanın “Evronews” kanalının əməkdaşları Qolina Polonskaya və Pol Tunin Açıq Səma Altında Muzeydə videosüjetlər, ATV “Ləziz macəra” verilişi üçün yerli və özəl kanallar çəkilişlər aparmışlar.

Tariximizin və qədim mədəniyyətlərimizin təbliğində əcnəbi KİV-lər də mühüm rol oynamışlar. Qardaş Türkiyə Respublikasının TRT-1, TRT-2, TRT-Avaz, TRT-A, TRT-D, TRT-Ərəbcə, Rusiya TV kanal portalları tərəfindən muzeydə geniş videoçəkilişlər aparılmış, əməkdaşlardan müsahibələr alınmış, hazırlanmış maraqlı proqramlar həmin kanallar vasitəsilə yayımlanmışdır. Əcnəbi ölkələrin televiziya verilişlərində yayımlanan həmin materiallar qədim Naxçıvanımızın tarixinin və zəngin mədəniyyətinin tanıdılmasında xüsusi əhəmiyyət kəsb edir.

*Bir sözlə, bu gün muxtar respublikamızda fəaliyyət göstərən bütün muzeylərimiz kimi, Açıq Səma Altında Muzey də “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin tərkibində özünün milli dəyərlərimizi, tariximizi qoruyub yaşatmaq və təbliğ etmək funksiyasını uğurla davam etdirir.*

**Nəzakət ƏSƏDOVA**
***“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi***

## Muxtar respublikada daha 14 nəfərə dövlət icbari şəxsi sığorta ödənişi edilib

Ölkəmizdə sosial-iqtisadi sahədə həyata keçirilən uğurlu siyasət əhalinin sosial müdafiəsini gücləndirib, insanların yaşayış tərzi davamlı olaraq yüksəlib, yoxsulluq səviyyəsi aşağı düşüb. Dövlətimiz təqaüdçülər, əmək qabiliyyətindən məhrum olanlar, eləcə də şəhid ailələri və müharibə iştirakçılarının qarşısındakı sosial öhdəliklərini müvəffəqiyyətlə yerinə yetirir.

Muxtar respublikada da bu sahədə qazanılan uğurlardan bəhrələnməklə, ilk növbədə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, insanların rifah halının yaxşılaşdırılmasına mühüm önəm verilir, sosial məsələlərin həllinə böyük diqqət yetirilir. Bu sahədə aparılan tədbirlərdən biri kimi aidiyyəti şəxslərə dövlət icbari şəxsi sığortasının qanunvericiliyə uyğun təyin edilməsi və vaxtında ödənilməsi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu dövlət icbari şəxsi sığorta ödənişlərinin vaxtında ödənilməsini təmin edərək onu almaq hüququ yaranan şəxslərin sosial rifahının yaxşılaşdırılması üçün müvafiq işlər görür. Belə ki, fond iyul ayında dövlət icbari şəxsi sığorta ödənişini almaq hüququ yaranan 14 hərbi qulluqçuya sığorta ödənişi həyata keçirib. Bunlardan 12-nə sağlamlıq imkanlarının məhdudluğuna görə, 2-nə isə az ağır xəsarət aldığına görə sığorta ödənişi verilib. Dövlət icbari şəxsi sığorta ödənişinin həyata keçirilməsi üçün 51 min 700 manat vəsait yönəldilib. Ümumiyyətlə, ilin əvvəlindən fond tərəfindən 18 nəfərə dövlət icbari şəxsi sığorta ödənişi həyata keçirilib. Qeyd edək ki, dövlət icbari şəxsi sığorta ödənişi ilə əhatə olunan şəxslərin 7-si İkinci Qarabağ müharibəsi iştirakçısıdır. Bu da onu göstərir ki, muxtar respublikada müharibə iştirakçılarına, şəhid ailələri və qazilərə xüsusi diqqət və qayğı göstərilir, onların sosial məsələlərinin həlli üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Fond bundan sonra da dövlət icbari şəxsi sığorta sahəsində üzərinə düşən vəzifələri yerinə yetirəcək, aidiyyəti şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müvafiq işlər görəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Naxçıvan Dövlət Universitetinin
# Tələbə Teatr Studiyası uğurlu yoldadır

*Naxçıvan Dövlət Universiteti fəaliyyətə başladığı vaxtdan həmişə etdiyi yeniliklərlə ölkəmizin ali təhsil müəssisələri sırasında özünəməxsus yerlərdən birini tutub. Bir çox ixtisasların tədris olunduğu universitetdə, eyni zamanda mədəniyyət, maarifçilik məsələləri də gündəmdə olub. Çünki hər bir xalqın inkişafında və varlığını qorumasında mədəniyyət məsələləri son dərəcə vacib amildir. Ona görə də ümummilli liderimiz Heydər Əliyev də deyirdi ki, **"Hər bir xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir"**. Məhz ona görə ulu öndər hakimiyyətdə olduğu bütün dövrlərdə xalqın mədəniyyətinin inkişafına həmişə diqqət mərkəzində saxlamışdır.*

Muxtar respublikamızda mədəniyyətin inkişafına öz töhfələrini verən Naxçıvan Dövlət Milli Dram Teatrı, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası tamaşaçıların estetik zövqünün formalaşması, asudə vaxtının səmərəli təşkilində mühüm rol oynayır. Bu kontekstdə Naxçıvan Dövlət Universitetinin Teatr və mədəniyyətşünaslıq kafedrası nəzdində fəaliyyət göstərən Tələbə Teatr Studiyası illərə söykənən səmərəli fəaliyyət yoluna sahibdir. Aktyorluq ixtisası ilə yanaşı, müxtəlif ixtisaslarda təhsil alan tələbələri öz ətrafına toplayan bu studiya hazırladığı tamaşalarla nəinki universitetin müəllim və tələbə heyətinin rəğbətini qazanmış, həmçinin muxtar respublikanın mədəni həyatında, respublikamızdan kənarlarda da bir sıra uğurlara imza atmışdır. Studiya burada özfəaliyyətlə məşğul olan tələbə-gənclərin istedadlarının inkişafı ilə yanaşı, eyni zamanda onların öz gələcək karyeralarının formalaşmasında gənclərə böyük dəstək olmuş, universitet rəhbərliyi gənclərin istedad və bacarıqlarının formalaşdırılması, onlar üçün münbit şəraitin yaradılmasını təmin etmiş, texniki və mənəvi dəstək vermişdir. 2018-ci ildə studiyanın 20 illik fəaliyyətini əks etdirən "NDU Tələbə Teatr Studiyası – 20" adlı kitabın nəşr olunması da bunun ifadəsidir.

Tələbələrin sevimli məkanına çevrilən Tələbə Teatr Studiyası yerli tədbirlərdə fəal iştirak etməklə yanaşı, xaricdə səfərlərdə də olmuş, bir sıra uğurlar qazanmışdır. Studiya bu illər ərzində Kamal Abdullanın "Beyrəyin andı" (1999), türk yazıçısı Turan Oflazoğlunun "Atatürk" (2000), Cəlil Məmmədquluzadənin "Anamın kitabı" (2001), "Ölülər" (2004), "Poçt qutusu" (2005), "Danabaş kəndinin məktəbi" (2006), Həmid Arzulunun "Qaçaq Quşdan" əsəri əsasında səhnələşdirilmiş "Milaxda həyəcan" (2005), Nazim Hikmətin "Qəribə adam" (2012), Esxilin "Zəncirlənmiş Prometey" (klassik yunan faciəsi – 2013), Adil Babayevin "Sarı gəlin" (2014), Elnur Rzayevin "Boz" (pantomim tamaşa – 2015), Kamal Abdullanın "Bir, iki – bizimki" (absurd janrda monotamaşa – 2016),Vüsal Rzayevin "Vaxtsız gələn qonaq" (monotamaşa – 2017), klassik alman dramaturqu Qothold Efraim Lessinqin eyniadlı əsəri əsasında həmyerlimiz yazıçı-dramaturq Həmid Arzulunun tərcüməsində "Emiliya Qalotti" (2017) tamaşalarını hazırlayıb teatrsevərlərə təqdim etmişdir.









2021-ci ildə Nizami Gəncəvinin "Yeddi gözəl" poemasının motivləri əsasında səhnələşdirilmiş "Xeyir və Şər" tamaşası muxtar respublikada böyük Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlı Tələbə Teatr studiyaları arasında keçirilən müsabiqədə birinci yerə layiq görülmüşdür.

Bu gün də fəaliyyətini uğurla davam etdirən 20 yaşlı kollektiv Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş bədii yaradıcılıq müsabiqə-festivalında qalib gəlmiş, yaddaqalan çıxışları ilə teatrsevərlərin diqqətini cəlb etmişdir. Qeyd edək ki, müsabiqə-festivala respublikada fəaliyyət göstərən 28 ali təhsil müəssisəsi qatılmışdı. Böyük uğur münasibətilə ali təhsil ocağının rektoru Elbrus İsayev fəallıq göstərən tələbələri təbrik edib, onlara müvəffəqiyyətlər arzulayıb. Milli rəqs nominasiyası üzrə qalib komandaya Təhsil Nazirliyi və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri fərmanı, hədiyyə və universitetin təşəkkürnaməsi təqdim edilib.

Solo rəqs, milli və dünya xalqlarının çalğı alətləri və vokal nominasiyası üzrə II yeri qazanan tələbələr də Fəxri fərman və təşəkkürnamə ilə təltif olunublar. Milli rəqs üzrə tələbələrin hazırlanmasında əməyi olan universitetin Tələbə Teatr Studiyasının rəhbəri, Əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədovaya və Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, Meliorasiya və geodeziya mühəndisliyi kafedrasının müəllimi Hüseyn İmanova universitetin təşəkkürnaməsi təqdim olunub.

Qeyd edək ki, Tələbə Teatr Studiyası qardaş Türkiyə və müxtəlif ölkələrdən gələn əcnəbi tələbələrə də qucaq açaraq onlara Azərbaycanın milli musiqisini, adət-ənənəsini, mədəniyyətini tanıtmaqda mühüm rol oynayır. Əcnəbi tələbələrin sərgilədikləri maraqlı performanslar sosial mediada böyük rəğbətlə qarşılanmışdır.

Tələbə Teatr Studiyası haqqındakı kiçik qeydlərimizi qədim diyarımızda teatr ənənələrinin inkişafına yüksək qiymət verən, dəstək, qayğı göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun fikirləri ilə tamamlamaq istəyirik: ***"Naxçıvan teatrı fəaliyyət göstərdiyi bütün dövrlərdə mütərəqqi ideyaları dəstəkləmiş, günün aktual məsələlərinə nüfuz etmiş, xalqın milli oyanışına çalışmışdır".***

*Bu gün fəxrlə deməkolar ki, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası böyük ənənələrə malik Naxçıvan teatrının yolunu davam etdirmək əzmi ilə çalışır. Bu da belə deməyə əsas verir ki, bu gün Azərbaycan Respublikasının tələbə teatrları arasında nüfuz qazanmış Tələbə Teatr Studiyası daha da maraqlı çıxışları ilə bundan sonra da yeni-yeni müvəffəqiyyətlərə imza atacaq.*

**Gülxarə ƏHMƏDOVA**
***Naxçıvan Dövlət Universitetinin Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri, dosent, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi***

# Ətraf mühitin mühafizəsi ekoloji siyasətin əsasını təşkil edir

*Ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması ilə yanaşı, aqrar sənaye potensialından səmərəli istifadə edilməsi, "Sənaye ili"ndə yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması fonunda ekoloji tarazlığın qorunması, meşəliklərin artırılması, yaşıllıq sahələrinin genişləndirilməsi cari ilin ötən dövründə də aktual məsələ kimi diqqətdə saxlanılmışdır.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 25 fevral 2022-ci il tarixdə təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclisin Sədri tərəfindən verilmiş tapşırıqların icrası Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əsas fəaliyyət istiqaməti olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Muxtar respublikada ətraf mühitin qorunması sahəsində ardıcıl tədbirlər görülür, yaşıllıqlar artırılır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi yerli icra hakimiyyətləri ilə birlikdə bu il də yeni yaşıllıq zolaqlarının və meyvə bağlarının salınması, eləcə də bərpa əkinləri üçün hazırlıqlar görməli, hava şəraitinə uyğun olaraq yaşıllaşdırma tədbirlərinə başlanılmalıdır. Yaşıllaşdırma tədbirlərində ting tələbatı yerli imkanlar hesabına ödənilməli, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxs bu sahədə tədbirlərə diqqəti artırmalı, tingçilik təsərrüfatlarında hazırlıqlara başlanılmalıdır".*** Bu tövsiyələr nazirliyin bu sahədəki fəaliyyətinin perspektivlərini müəyyən edir.



Ötən yarım ildə muxtar respublika ərazisində nazirlik, idarə və müəssisələr, rayon, şəhər icra hakimiyyətləri və vətəndaşlar tərəfindən, ümumilikdə, 232,0 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılmış, yeni meyvə bağları salınmış, toxumla əkin aparılmışdır. Ümumilikdə, 150 min ədəd meyvə, meşə, həmişəyaşıl tingləri, üzüm, bəzək və gül kolları əkilmişdir. Yaşıllaşdırma tədbirlərində meşə və meyvə tinglərinə, həmişəyaşıl ağaclara olan tələbat, əsasən, nazirlik tərəfindən təmin edilmişdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 120 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılmış, yeni meyvə bağları salınmış, toxumla əkin aparılmışdır.

Muxtar respublikamızda ətraf mühitin mühafizəsi, yaşıllıqların qorunması və artırılması diqqətdə saxlanılmış, keçirilən yaşıllaşdırma tədbirlərində 4,6 hektarı üzüm olmaqla, 55,6 hektar sahədə meyvə bağı, yaşıllıq zolaqları salınmışdır. Meyvə bağlarının salınmasında yerli sortlara üstünlük verilmiş, əsasən, badam, qoz, üzüm, tut, ərik, alma, tinglərindən istifadə olunmuşdur. Muxtar respublikamızın təbii-iqlim şəraitinə uyğunlaşa bilən və iqtisadi cəhətdən səmərəli olan növlərin inkişaf etdirilməsi məqsədilə 2015-2016-cı illərdə salınmış püstə bağında lazımi aqrotexniki işlər görülmüş, yerli şəraitdə yetişdirilmiş püstə tingləri və toxumları ilə 2,0 hektar sahədə yeni püstə bağı salınmış, qapalı damcılı suvarma sistemi quraşdırılmışdır.

2022-ci ilin birinci yarım ilində Naxçıvan şəhəri ərazisində 7,0 hektar, Şərur rayonu ərazisində 11,2 hektar, Babək rayonu ərazisində 4,7 hektar, Culfa rayonu ərazisində 11,3 hektar, Ordubad rayonu ərazisində 14,6 hektar, Şahbuz rayonu ərazisində 9,2 hektar, Kəngərli rayonu ərazisində 13,4 hektar, Sədərək rayonu ərazisində 12,0 hektar sahədə yaşıllaşdırma tədbirləri aparılmışdır.

Bəhs olunan dövrdə nazirlik tərəfindən 2,0 hektar ərazidə toxmacarlıq və qələmköklündirmə sahələri yaradılmış, tingçilik təsərrüfatlarında növ müxtəlifliyi diqqətdə saxlanılmış, həmçinin təcrübə məqsədilə əkinlər aparılmış, 15 min ədəd üzüm, 10 min ədəd iydə, 3 min ədəd çinar qələmləri əkilmişdir. Mövsüm ərzində bərpa işlərinin fasiləsiz aparılması məqsədilə 1800 ədəddən artıq dibçəkdə ting yetişdirilmişdir.

Həyata keçirilmiş tədbirlərin nəticəsidir ki, bu gün tinglik sahələrdə 350 min ədəddən artıq meyvə tingləri mövcuddur. O cümlədən çinar, püstə, armud, heyva, üzüm, sərv, maklura, akasiya tingləri yetişdirilmiş və bu sahədə təcrübə əldə edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq Naxçıvançay, Əlincəçay, Gilançay, Nəsirvazçay, Arpaçay vadilərində çilik üsulu ilə əkin işləri aparılmış, ümumilikdə, 6200 ədəd iydə, söyüd və qələmə çilikləri çay vadilərində əkilmişdir.

Dövlət Meşə Fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət ərazilərində 250 ədəd müxtəlif cır meyvə ağaclarına calaq vurulmuşdur. Əkin işlərində toxumla əkinin üstünlükləri əsas götürülərək Ağbulaq Kənd-Turizm İstirahət Bölgəsi, Darıdağ ərazisində və xüsusi mühafizə olunan təbiət ərazilərində 80,0 hektar sahədə şırım üsulu ilə toxumla əkin aparılmış, 1280,0 kiloqramdan artıq üzüm, alça, ardıc, palıd, həmərsin, yemişan, badamça, iydə toxumları əkilmişdir.

*Ətraf mühitin mühafizəsinə, diyarımızın zəngin flora və faunasının, iqlim müxtəlifliyinin qorunmasına, nəticə etibarilə, insan amilinə xidmət edən ekoloji tədbirlər bundan sonra da davam etdiriləcəkdir.*

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Mehdiyev Azad Yaşar oğlunun adına Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 07.07.2009-cu ildə TŞ N-035066 nömrəli və 11.06.2013-cü ildə verilmiş TŞ N-035568 nömrəli şəhadətnamələr itdiyindən etibarsız sayılır.

**ŞƏRQ *qapısı***
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

***Ünvan: AZ-7000,***
***Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail: *serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**
***Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır***

***Nömrəyə məsul:* Ceyhun Məmmədov**
***Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.***
**Tiraj: 1500. Sifariş № 685**